# Tarixin sınaqlarından çıxmış qardaşlıq

## Müsahibimiz Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı səfiri doktor Həməd bin Abdulla bin Xudeyrdir



***– Cənab səfir, bu yaxınlarda Səudiyyə Ərəbistanının Azərbaycanın dövlət müstəqilliyini tanımasının 30 ili tamam olur. Bu tarixi fakt, eləcə də, geridə qalan üç onillikdəki əməkdaşlığımız barədə sizin fikirlərinizi öyrənmək istərdik.***

– Səudiyyə Ərəbistanı Krallığının 1991-ci il dekabrın 30-da Azərbaycan Respublikasının müstəqilliyini tanıması, ortaq keçmiş, mədəniyyət və dinə malik olan iki qardaş ölkə arasında yeni yüksək səviyyəli qardaşlıq münasibətlərinin qurulduğu gün kimi tarixə düşüb. Bununla da münasibətlər bu cür sağlam və möhkəm təməllər üzərində qurulmuş, sonra müxtəlif sahələrdə və səviyyələrdə əməkdaşlıq və koordinasiya ilə daha da inkişaf edib, zənginləşərək dünya ölkələri arasında münasibətlərin nadir hallarda çatdığı bu yüksək səviyyəyə qalxmışdır.

Əgər iki ölkə arasında siyasi, iqtisadi və sosial sahələrdəki əməkdaşlığın nailiyyətləri haqqında danışmağa başlasaq, bu müsahibə çərçivəsində mövzunu tam əhatə edə bilmərik. İkitərəfli münasibətlərin miqyasını təsəvvür etmək üçün son aylarda gerçəkləşən qarşılıqlı səfərlərə və görüşlərə nəzər salmaq kifayətdir. Bir müddət öncə Azərbaycanın Xarici işlər naziri, Energetika naziri və Dövlət Gömrük Komitəsinin sədri, eləcə də Xarici işlər naziri müavininin Səudiyyə Ərəbistanına səfərləri, həmçinin Azərbaycan İqtisadiyyat naziri ilə Səudiyyə Ərəbistanının “ACWA Power” şirkətinin İdarə Heyəti sədrinin görüşü, iki öklənin parlamentlərarası dostluq qrupunun üzvlərinin görüşü, Səudiyyə Ərəbistanı Milli Şirkətlərin Təşviqi Proqramının (NCPP) baş direktorunun, həmçinin Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzi İdarə Şurasının sədrinin Azərbaycana səfərləri son bir neçə ay ərzində baş turmuşdur. Bundan əlavə, ay Ər-Riyad şəhərində iki ölkənin Xarici İşlər Nazirlikləri arasında məsləhətləşmələr keçirilib. Görüşdə ikitərəfli əlaqələrin siyasi, iqtisadi, humanitar və digər sahələrdə inkişafı yolları müzakirə olunub, qarşılıqlı maraq doğuran regional və qlobal xarakterli məsələlərə dair fikir mübadiləsi aparılıb. Yaxın günlərdə, daha dəqiq desək dekabrın 15-16-da Ər-Riyad şəhərində iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Hökumətlərarası Müştərək Komissiyanın 6-cı iclası keçiriləcək. Səudiyyə Ərəbistanının İnvestisiyalar naziri ilə Azərbaycanın Maliyyə nazirinin başçılığı ilə keçiriləcək bu iclasda ikitərəfli əlaqələrin geniş spektrli məsələlərinin müzakirəsi, o cümlədən investorların üzləşdiyi çətinliklərin aradan qaldırılması, şirkətləri iki ölkə arasında sərmayə qoymağa həvəsləndirilməsi yollarının araşdırılması nəzərdə tutulur. Qeyd etdiyim bu intensiv təmaslardan əlavə, beynəlxalq təşkilatlar və forumlar çərçivəsində əməkdaşlıq və koordinasiya və mühüm məsələlərdə qarşılıqlı dəstək prosesi öz yolunda davam edir.

***– Rəsmi Ər-Riyad Azərbaycan ərazilərini işğal etdiyinə görə Ermənistanla diplomatik əməkdaşlıq etməyən azsaylı ölkələrdəndir. Bu qardaşlığa görə minnətdarıq. Bəs bugünkü reallıqları necə qiymətləndirirsiniz?***

– Siz qardaşlığı qeyd etdiniz, ona görə də Azərbaycanın ədalətli mövqeyində Səudiyyə Krallığının onun yanında olması təbiidir. Bir qardaşın digərinə qarşı başqa cür münasibəti mümkün deyil. Münaqişə başladığı vaxtdan bəri Krallığın mövqeyi aydın və dəyişməz olub. Bu da Azərbaycan Respublikasının ərazi bütövlüyünü və suverenliyini dəstəkləmək və işğalın davam etdiyi müddətdə Ermənistanla heç bir əlaqə yaratmamaqdan ibarətdir. Qeyd edilən müddət ərzində Krallıq öz mövqeyinə və prinsiplərinə sadiq qalmışdır. Bundan əlavə, 44 günlük müharibə zamanı Krallıq Azərbaycanın qanuni hüquqlarına dəstək mövqeyini bəyan edərək, münaqişənin BMT və İslam Əməkdaşlıq Təşkilatının müvafiq qətnamələrinə uyğun həllinə tərəfdar olduğunu bütün dünyaya çatdırmışdır. Biz sevinirik ki, bu gün Azərbaycan öz torpaqlarını azad edib və şadıq ki, Rusiyanın vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında əldə olunan atəşkəs razılaşması regionda sabitlik yaradıb.

***– Bu il iyunun 23-də Azərbaycan Respublikasının Xarici işlər naziri Ceyhun Bayramovun Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri zamanı Səudiyyə şirkətlərini işğaldan azad edilmiş ərazilərimizin bərpasında iştirak etməyə çağırmışdı. Mən – Səudiyyənin Azərbaycandakı dostlarından olan yaşlı jurnalist kimi, sizin şirkətlərinizin Qarabağda görünməsinə çox tələsirəm.***

– Səudiyyə şirkətlərinin azad edilmiş ərazilərin bərpasında iştirakı məsələsi iki ölkə rəsmiləri arasında son görüşlərin mövzusudur. Son dəfə bu haqda müzakirə bir az əvvəl qeyd etdiyimiz siyasi məsləhətləşmələr zamanı baş tutub. Bildiyiniz kimi, cənab İlham Əliyev öz çıxışlarında işğaldan azad edilmiş torpaqların “yaşıl enerji” zonasına çevrilməsi təşəbbüsünü xüsusi vurğulamışdır. Krallıq və Azərbaycan arasında bu sahədə əməkdaşlıq təcrübəsi artıq mövcuddur. Belə ki, Səudiyyə Ərəbistanının ACWA Power şirkəti hazırda Abşeron və Xızı rayonlarında istehsal gücü 240 meqavat, dəyəri 300 milyon ABŞ dolları olan külək elektrik stansiyası layihəsini həyata keçirməkdədir. Bu təcrübənin işğaldan azad edilmiş torpaqlarda da tətbiq edilməsini müzakirə etmək olar. Xüsusən də nəzərə alsaq ki, Krallıq hal-hazırda “Yaşıl Səudiyyə Ərəbistanı” adlı nəhəng layihə həyata keçirir. Əlahəzrət Vəliəhd Şahzadə Məhəmməd bin Salman tərəfindən cari ildə elan edilmiş bu təşəbbüsün məqsədlərindən biri də 2030-cu ilə kimi Səudiyyə Ərəbistanının istehsal etdiyi elektrik enerjisinin 50 faizini bərpa olunan mənbələrdən əldə etməkdir. Beləliklə, iki ölkə arasında əməkdaşlıq üçün geniş imkan və sahələr var.



***– Növbəti sualım Azərbaycan – Səudiyyə Ərəbistanı Biznes Şurasının yaradılması barədə olan təşəbbüslə bağlıdır. Çünki bu şuranın möhtəşəm perspektivinə inanıram.***

– Biz iki ölkə arasında iqtisadi və investisiya sahələrində bütün əməkdaşlıq təşəbbüslərini alqışlayırıq. Ölkələrimiz arasında iqtisadi əməkdaşlıqla əlaqəli bir çox orqan və qurumlar var ki, bunlardan ən mühümü iqtisadiyyat, ticarət, investisiya, texnika, mədəniyyət, idman və gənclik sahələrində əməkdaşlıq üzrə Hökumətlərarası Müştərək Komissiyasıdır. Bir qayda olaraq, bu komissiyanın iclasları çərçivəsində biznes forumlar keçirilir ki, burada da Səudiyyə və Azərbaycandan olan iş adamları üz-üzə görüşüb, əməkdaşlıq imkanlarını müzakirə edirlər. Həmçinin qeyd edim ki, Hökumətlərarası Müştərək Komissiya çərçivəsində işçi qrupu yaradılıb ki, o, iqtisadi, investisiya və ticarət sahəsində əməkdaşlığı müzakirə etmək üçün vaxtaşırı hər iki ölkənin rəsmi və iş adamlarını bir araya toplayır. Göstərilən orqan və qurumların fəaliyyətini aktivləşdirsək, digər oxşar qurumlara ehtiyac olub-olmamasını zaman göstərəcək.

***– Heç kəsin yadından çıxmayıb. Azərbaycanın iqtisadi cəhətdən imkansız olduğu, yüz minlərlə qaçqın-köçkünün problemləri ilə üz-üzə qaldığı illərdə Səudiyyə Ərəbistanı bizdən öz qardaşlıq yardımlarını əsirgəmirdi. İndi isə Azərbaycan artıq donor ölkələrdən birinə çevrilib. Bu reallıqlara münasibətiniz də maraqlıdır.***

– Krallığın müsəlman aləmindəki yerinə əsasən, İslama və dünyanın bütün ölkələrindəki müsəlmanlara xidmət etmək onun ən ümdə prioritetlərindən biri olmuşdur. Belə ki, Krallıq əksəriyyəti müsəlman ölkələrindən ibarət inkişaf etməkdə olan dövlətlərə indiyədək milyardlarla dollarlıq yardımlar göstərmişdir. Birləşmiş Millətlər Təşkilatının Maliyyə İzləmə Xidmətinin (FTS) hesabatlarına görə, dünya dövlətlərinə humanitar yardım göstərmək sahəsində Səudiyyə Ərəbistanı Krallığı ərəb ölkələri arasında birinci, dünyada isə üçüncü yerdədir. 1994-cü ilin iyul ayında mərhum Azərbaycan Prezidenti Heydər Əliyevin Krallığa səfəri, ölkəmizin rəhbərliyi, eləcə də beynəlxalq və yerli İslam təşkilatı rəhbərləri ilə görüşü, o vaxt Səudiyyə Ərəbistanının azərbaycanlı qaçqın və köçkünlərə göstərdiyi yardımların artmasında böyük rol oynadı. Zati-aliləri müxtəlif beynəlxalq təşkilatların kürsülərində həmişə bu humanitar və qardaşlıq yardımlarını yüksək qiymətləndirirdi. Bu cür yardımlardan bəziləri indiyə kimi davam etməkdədir. Belə ki, Krallıq İslam İnkişaf Bankının xətti ilə hər il azərbaycanlı qaçqın və köçkünlərə qurban əti göndərir. Lakin Səudiyyə Ərəbistanının doxsanıncı illərdəki yardımlarından fərqli olaraq, hazırki yardımlar rəmzi xarakter daşıyır və azərbaycanlı qaçqınlara qardaşlıq hədiyyəsi sayılır. Çünki Azərbaycan dövləti onlara xüsusi diqqət və qayğı göstərir. Çox məmnunuq ki, hazırda Azərbaycan bir donor ölkəsinə çevrilib və Zati-aliləri Prezident İlham Əliyevin rəhbərliyi ilə yoxsul, böhran və təbii fəlakətlərdən zərər çəkən ölkələrə kömək edir. Bütün dünyanın COVID-19-dan əziyyət çəkdiyi bir gündə, Azərbaycan bəzi ölkələrə koronavirusa qarşı vaksin və qoruyucu vasitələrlə yardım göstərib.

Bütün bu humanitar yardımlar bizim xalqların möhkəm dəyərlərinin təzahürüdür ki, o da uca dinimiz İslamdan qaynaqlanır. Allah-təaladan diləyirik ki, əziz vətənlərimizə əmin-amanlıq, firəvanlıq və çiçəklənmə nemətlərini davamlı etsin, onların müdrik rəhbərlərini, sülhsevər və xeyirxah xalqlarını daim qorusun!

***– Cənab səfir, suallarımızı cavablandırdığınıza görə təşəkkür edirik. Oxucularımıza demək istədiyiniz başqa fikirlər də varsa, buyurun...***

– Mən Azərbaycandakı media və mədəniyyət müəsisələrini Krallıqdakı tərəf müqabilləri ilə fikir mübadiləsinə səsləmək istərdim. Qardaş Səudiyyə və Azərbaycan xalqları arasında dostluq və sevgi bağlarının gücləndirilməsində göstərdiyiniz böyük səylərə görə, qocaman və təcrübəli bir jurnalist kimi sizə və dəyərli “Xalq qəzeti”nə təşəkkür edirik. Jurnalist fəaliyyətində sizə bol uğur və müvəffəqiyyət arzu edirik.

***Müsahibəni apardı:***
***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***